

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 78 (21.230)

*23 aprel 2015-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, “Bakı-2015” Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, qızı, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Heydər Əliyev adına İdman Sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olublar.

Gənclər və İdman naziri Azad Rəhimov burada aparılan əsaslı təmir işləri barədə məlumat verdi.

Əsaslı təmir işləri aparılarkən kompleksin mötəbər yarışların təşkilinə, o cümlədən Birinci Avropa Oyunları zamanı beynəlxalq idman federasiyalarının tələblərinə cavab verməsi və funksionallığının daha da artırılması üçün bir sıra tədbirlər görülüb. Bu sarayın əsaslı təmiri Avropa Olimpiya Komitəsi, “Bakı-2015” ilk Avropa Oyunları Əməliyyat Komitəsi və aidiyyəti beynəlxalq federasiyaların tələbləri nəzərə alınmaqla yüksək keyfiyyətlə yerinə yetirilib.

Sarayın ümumi tamaşaçı tutumu təmirdən əvvəl 7587 nəfər idisə, indi bu rəqəm 7830-a çatdırılıb. Ümumi sahəsi 54,8 min kvadratmetr olan binada aparılan əsaslı təmir işləri zamanı daxili kommunikasiya, havalandırma sistemləri yenidən qurulub, zalların döşəməsinə idman təyinatlı xüsusi örtük vurulub.



# Muxtar respublikanın sərhəd kəndləri abadlaşır

## *Şahbuz rayonunun Gömür kəndində yeni sosial obyektlər inşa olunmuşdur*

Muxtar respublikanın sosial-iqtisadi inkişafı hər bir yaşayış məntəqəsini əhatə edib. Bu gün ucqar və sərhəd kəndlərində genişmiqyaslı quruculuq tədbirləri görülür, müasir infrastruktur yaradılır.

Şahbuz rayonunun Gömür kəndində də yeni sosial obyektlər inşa olunmuş, geniş abadlıq işləri görülmüşdür.

Artıq bu sərhəd kəndi füsunkar təbiət mənzərələri ilə yanaşı, həm də müasir sosial infrastrukturu ilə diqqəti cəlb edir.

## Gömür Kənd Mərkəzinin açılışı olmuşdur

Aprelin 22-də Gömürdə yeni kənd mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Tədbirdə kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Mənsur Orucov çıxış edərək demişdir ki, bu gün Şahbuz rayonu özünün müasir inkişaf dövrünü yaşayır. Rayonda aparılan kompleks quruculuq işləri ucqar Gömür kəndində də uğurla həyata keçirilmiş, insanların sosial problemləri həll edilmişdir. Həmçinin xidmət sahələrində çalışan işçilər üçün nümunəvi iş şəraiti yaradılmışdır. Kənddə ailələr üçün fərdi evlər tikilmiş, əhalinin məşğulluğunun əsasını təşkil edən təsərrüfat sahələri genişləndirilmişdir. Sakinlər insan amilinə xidmət edən bu işləri böyük rəğbətlə qarşılayır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gömür kəndində həyata keçirilmiş quruculuq işləri münasibətilə sakinləri təbrik edərək demişdir: “Gömür kəndində həyata keçirilən quruculuq tədbirləri ölkəmizdə kəndlərin inkişafına göstərilən dövlət qayğısının daha bir nümunəsidir. Dəniz səviyyəsindən 2200 metr yüksəklikdə yerləşən bu ucqar dağ və sərhəd kəndində yaradılan şərait insanların məskunlaşmasına, onların rahat yaşayışına, kəndlərin kompleks inkişafına, bir sözlə, kəndlə şəhər arasındakı fərqin aradan qaldırılmasına xidmət edir. Gömür kənd sakinləri üçün rahat yaşayış şəraiti yaradılmışdır. Kənd tamamilə qazlaşdırılmış, elektrik enerjisinin fasiləsiz verilişi təmin edilmiş, müasir rabitə sistemi qurulmuş, poçt şöbəsi fəaliyyətə başlamışdır. Həmçinin kəndə fiber-optik kabel xəttinin çəkilməsi sürətli internetə çıxış imkanları yaratmışdır. Müasir tələblər səviyyəsində qurulan məktəb binası isə şagirdlərin yaxşı təhsil almasına imkan verəcəkdir”.

Ali Məclisin Sədri demişdir: “Gömür kəndində yaradılan müasir infrastruktur, əhalinin rahatlığının təmin olunması istiqamətində görülən tədbirlər ölkəmizin iqtisadi inkişafının göstəricisidir. Hazırda 580 nəfərə yaxın əhalinin yaşadığı bu kənddə 157 nəfər dövlətdən əməkhaqqı, təqaüd və müavinət formasında vəsait alır, əməkhaqqına əlavə 30 faiz ödənilir. Kəndin təbii şəraiti kənd təsərrüfatının müxtəlif sahələrinin, xüsusilə heyvandarlığın, arıçılığın və meyvəçiliyin inkişafı üçün əlverişlidir. Bu sahələrin inkişafı dövlət tərəfindən də dəstəklənilir, güzəştli kreditlər verilir, istehsal olunan kənd təsərrüfatı məhsullarının satışı təşkil olunur. 2015-ci il ölkəmizdə “Kənd təsərrüfatı ili” elan olunmuşdur. Ona görə də sakinlər yaradılan şəraitdən və göstərilən qayğıdan səmərəli istifadə etməli, kənd təsərrüfatının inkişafına öz töhfələrini verməlidirlər. Həmçinin qurulanlar qorunmalı, Gömür kəndi daha da inkişaf etdirilməli, insanlar burada rahat və firavan yaşamalıdırlar”.








Ali Məclisin Sədri Gömürün bundan sonra da sərhəd kəndi kimi möhkəmlənməsi, burada insanların məskunlaşması və rahat yaşayışı sahəsində lazımi tədbirlərin həyata keçiriləcəyini bildirmiş, bu işdə kəndin zəhmətkeş insanlarının da iştirakının vacibliyini vurğulamış, yeni sosial obyektlərdə əhaliyə nümunəvi xidmət göstəriləcəyinə əminliyini ifadə etmişdir.

Açılışı bildirən lent kəsilmiş və mərkəzə baxış olmuşdur.

Məlumat verilmişdir ki, 2 mərtəbədən ibarət olan kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, rabitə evi, kitabxana, feldşer-mama, baytarlıq və polis sahə məntəqələri, mədəniyyət evi və 60 yerlik iclas zalı vardır. Kənd mərkəzində yaradılan müasir iş şəraiti inzibati idarəetmə sisteminin daha təkmil təşkilinə və sakinlərin sosial problemlərinin vaxtında həllinə imkan verəcəkdir.

Rabitə evində yeni ATS quraşdırılmış, poçt xidməti təşkil olunmuşdur. Binada kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə və Yeni Azərbaycan Partiyası Gömür kənd ərazi ilk təşkilatı üçün də müasir iş otaqları ayrılmışdır. Hazırda bu kənddə Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının 82 üzvü vardır.

Əlverişli təbii şəraiti, geniş otlaq sahələri Gömürdə heyvandarlığın inkişafına səbəb olmuşdur. Kənd əhalisinin əksəriyyəti heyvandarlıqla məşğul olur. Ona görə də baytarlıq məntəqəsi üçün lazımi şərait yaradılmışdır. Bildirilmişdir ki, baytarlar vaxtaşırı yerlərdə olur, yoluxucu xəstəliklərə qarşı profilaktik tədbirlər görürlər. Baytarlıq xidmətinin düzgün təşkili kənddə heyvandarlığın inkişafına və keyfiyyətli məhsul istehsalına öz töhfəsini verəcəkdir.

Aparılan quruculuq tədbirləri zamanı kənd sakinlərinin asudə vaxtının səmərəli təşkili də diqqət mərkəzində saxlanılır. Bu məqsədlə kənd mərkəzində 5 mindən artıq fondu olan kitabxana və mədəniyyət evi istifadəyə verilmişdir. Buradakı iclas zalında müxtəlif tədbirlər keçiriləcəkdir.

Kənd mərkəzində feldşer-mama məntəqəsi üçün də otaqlar ayrılmışdır. Burada ən müasir tibb avadanlıqları quraşdırılmış və məntəqə lazımi dərman preparatları ilə təmin edilmişdir.

Ali Məclisin Sədri kənddə tibbi xidmətin təşkili ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

*Ardı 2-ci səhifədə*

# Gömür kənd tam orta məktəbinin binasında yenidənqurma işləri aparılmışdır





Ötən ildən başlayaraq Gömür kənd tam orta məktəbinin binasında əsaslı yenidənqurma işləri aparılmışdır.

Aprelin 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gömür kənd tam orta məktəbinə gəlmiş, məktəbdə yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 2 mərtəbədən ibarət olan məktəb binası 110 yerlikdir. Burada 2-si elektron lövhəli olmaqla, 11 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, kompüter, şahmat otağı, kitabxana, hərbi kabinə, idman zalı və açıq idman qurğuları vardır. Məktəbin kitabxanasında 2266 kitab vardır. Ayrı-ayrı fənlərə aid dərsliklər, ensiklopediyalar, bədii ədəbiyyatlar məktəbdə kitabxana işinin günün tələbləri səviyyəsində təşkilinə imkan verir.

Yeni texnologiyaların tədris sisteminə tətbiqi müasir dövrün tələbinə çevrilmişdir. Gömür kənd tam orta məktəbində də kompüter sinfi yaradılmış və kompüterlər internetə qoşulmuşdur.

Elektron lövhəli sinifdə muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Cəmşid Naxçıvanskinin Naxçıvan şəhərindəki evmuzeyi arasında əlaqə yaradılmış, şagirdlər muzeylə virtual tanış olmuşlar.

Sonra Ali Məclisin Sədri şahmat otağına baxmış, şagirdlərin bu idman növünə cəlbinin əhəmiyyətini vurğulamış, məktəbdaxili şahmat yarışlarının keçirilməsi barədə



tapşırıqlar vermişdir.

Məktəbin laboratoriyaları ən müasir cihaz və avadanlıqlarla təchiz edilmişdir. Şagirdlər keçirilən təcrübələrdə iştirak etməklə fizika, biologiya və kimya fənləri üzrə biliklərini daha da möhkəmləndirəcəklər.

Vətənpərvərlik tərbiyəsi gənclərin əsl vətəndaş kimi formalaşması üçün olduqca vacibdir. Məktəbdə müasir əyani vasitələrlə təchiz olunan hərbi kabinənin yaradılması bu sahəyə ayrılan diqqətin əyani ifadəsidir.

Həmçinin Gömür kənd tam orta məktəbində geniş idman zalı və açıq idman qurğuları istifadəyə verilmişdir.

Ali Məclisin Sədri sağlam gənc nəslin formalaşmasında bədən tərbiyəsi və idmanın rolunu qeyd etmiş, məktəbdə fiziki tərbiyə dərslərinin tədrisinə diqqəti artırmağı tapşırmışdır.

Sonra Ali Məclisin Sədri məktəbin müəllimləri ilə görüşmüşdür.

Söhbət zamanı Ali Məclisin Sədri demişdir ki, bu gün sərhəd yaşayış məntəqəsi olan Gömür kənd məktəbində müasir tədris şəraiti yaradılmışdır. Kənd məktəbi ilə şəhər məktəbləri arasında heç bir fərq yoxdur. Bu da ölkəmizdə kəndlərin inkişafına göstərilən qayğının daha bir ifadəsidir. Gömür kənd tam orta məktəbində müəllim tələbkarlığı və şagird çalışqanlığının olması ötən tədris ilində ali məktəblərə qəbulda yüksək nəticələrin qazanılmasına imkan vermişdir. Mövcud şərait gələcəkdə məktəbi bitirən gənclərin yaxşı ali təhsil almasına da imkan verəcəkdir. Hər bir gəncin gələcək həyat yolu məktəbdən başlayır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"İnsanın şüurlu həyatı, onun gələcəyi, onun cəmiyyətdə özünə yer tutması məktəbdən başlayır".*** Ona görə də məktəbdə tədris günün tələbləri səviyyəsində qurulmalı, təhsilli gənclər yetişdirilməlidir.

Məktəbin müəllimi Zahid Aslanov minnətdarlıq edərək demişdir ki, bu gün ən ucqar dağ kəndində belə müasir tədris şəraitinin yaradılması muxtar respublikada təhsil sahəsinin inkişafına göstərilən qayğının aydın təzahürüdür. Gömür kənd tam orta məktəbində elektron tədris imkanı yaradılmış, müasir kitabxana, geniş sinif otaqları və laboratoriyalar kollektivin istifadəsinə verilmişdir. Bütün bunlar bilikli və vətənpərvər gəncliyin yetişdirilməsinə, sağlam gələcəyin təmin olunmasına xidmət edir. Bu işdə müəllimlərin də üzərinə böyük vəzifələr düşür. Buna görə də pedaqoji kollektiv səylə çalışacaq, nailiyyətləri daha da artıracaqdır.

# Kənddə yeni xidmət mərkəzi tikilmişdir






Muxtar respublikanın kəndlərində sakinlərin rahat yaşayışı üçün müasir sosial obyektlər tikilib istifadəyə verilir. Yeni yaradılan xidmət mərkəzləri bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Həmin gün Gömürdə də yeni xidmət mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xidmət mərkəzinin açılışını etmiş, xidmətin təşkili ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları fəaliyyət göstərir.

Xidmət mərkəzinin istifadəyə verilməsi sakinlərin öz işlərinə daha çox vaxt ayırmasına şərait yaradır. Çünki artıq bu mərkəz sayəsində əhalinin zəruri ehtiyaclarını ödəməsi məqsədilə rayon və şəhər mərkəzinə üz tutmasına ehtiyac yoxdur. Sakinlər bütün növ məişət ehtiyaclarını öz kəndlərində ödəyə biləcəklər. Mərkəzdə 5 nəfər işlə təmin olunmuşdur.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra kənd sakinləri ilə görüş olmuşdur.

Ali Məclisin Sədri demişdir ki, vaxtilə kənddə sakinlər üçün yeni yaşayış binaları tikilib istifadəyə verilmişdir. Bu gün isə kənd kompleks abadlaşdırılmışdır. Kəndin rahat yolu, müasir məktəbi, dövlət qurumları üçün yeni sosial obyektləri vardır. Görülən işlər kənddə əhalinin rahat yaşayışına hesablanmışdır. Gözəl təbii şəraiti kənddə turizmin inkişafına da geniş imkanlar açır. Hər bir sakin bu imkanlardan səmərəli istifadə etməli, təsərrüfatlar genişləndirilməli, bol məhsul istehsal olunmalıdır.

Kənd ağsaqqalı Saleh Səfərov demişdir ki, bu gün ulu öndərin siyasi xəttinin davam etdirilməsi ölkəmizin hər bir bölgəsini tərəqqiyə qovuşdurmuşdur. Azərbaycan günügündən inkişaf edir, əhalinin həyat səviyyəsi yüksəlir. Kəndlərdə şəhər rahatlığı yaradılır. Gömür kəndinin müasir inkişafı da bunun ən yaxşı nümunəsidir. Bütün bunlar sakinləri hədsiz sevindirir, daha əzmlə çalışmağa ruhlandırır. Saleh Səfərov yaradılan şəraitə görə sakinlər adından minnətdarlıq etmişdir.

* * *

Kənddə geniş abadlıq işləri aparılmış, kənddaxili 1400 metr yola asfalt örtük salınmış, yolboyu 482 metr uzunluğunda beton kanal çəkilmiş, 16 su keçidi qoyulmuşdur. Ağbulaq kəndindən Gömür kəndinədək 3600 metrlik, eləcə də kənddaxili 200 metrlik fiber-optik kabel, 1500 metrlik rabitə və 1400 metrlik elektrik xətləri çəkilmişdir. Həmçinin 200 metr məsafədə qaz xətti, 1600 metr uzunluğunda içməli su xətti çəkilmiş, 2250 metrlik damcılı suvarma sistemi qurulmuşdur.

# Sərhəd kəndləri etibarlı müdafiə olunur

Muxtar respublikada aparılan ordu quruculuğu siyasəti ən ucqar mövqedə yerləşən hərbi birləşmələrdə xidmətin nümunəvi təşkil olunmasına imkan verir. Xalq-ordu birliyindən ruhlanan, dövlətin və xalqın dəstəyini daim öz üzərində hiss edən hərbi qulluqçular torpaqlarımızın keşiyində ayıqsayıq dayanır, sərhəd yaşayış məntəqələrində yerləşən hərbi birləşmələrdə xidmət nümunəvi təşkil olunur.

Aprelin 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gömür kəndindəki hərbi hissəyə gəlmişdir.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova raport vermişdir.

*Ardı 3-cü səhifədə*





Ali Məclisin Sədri şəxsi heyəti salamlamışdır.

Sonra şəxsi heyət qarşısında çıxış edən Ali Məclisin Sədri demişdir: "Bu gün Azərbaycan sərhədləri etibarlı müdafiə olunur. Əsgərlərimizin şücaəti sərhədlərdə sabitliyin qorunmasına, torpaqlarımızın etibarlı müdafiəsinə təminat verir. Çətin dağlıq şəraitdə yerləşməsinə baxmayaraq, burada da sərhədlərimizin qorunmasında və xidmətin təşkilində hərbi nizamnamənin tələbləri pozulmur".

Ali Məclisin Sədri xidməti nümunəvi təşkil etdiklərinə görə şəxsi heyətə təşəkkür etmişdir.

Qeyd olunmuşdur ki, muxtar respublikanın bütün bölgələrində xidmət edən əsgərlər üçün lazımi məişət və xidmət şəraiti yaradılmış, hərbi birləşmələr müasir silah-sursatlarla təmin olunmuşdur. Bu bölmənin şəxsi heyəti də Azərbaycan torpaqlarının bir hissəsini müdafiə edirlər. Əgər hər bir əsgər üzərinə düşən vəzifələri layiqincə yerinə yetirərsə, sərhədlərimiz etibarlı qorunar, sabitlik təmin olunar. Hərbi xidmətin nümunəvi təşkili, torpaqlarımızın etibarlı müdafiəsi Azərbaycanda həyata keçirilən quruculuq işlərinə təminat verir. Bu gün Gömür kəndində quruculuq tədbirləri həyata keçirilmiş, insanların rahat yaşayışı təmin olunmuşdur. Sərhəd kənd yaşayış məntəqələrində bu işlərin həyata keçirilməsi hərbi hissələrdə xidmətin nümunəvi təşkili və ərazinin etibarlı müdafiəsi nəticəsində mümkün olmuşdur.

Ali Məclisin Sədri şəxsi heyətə xidməti vəzifələrin yerinə yetirilməsində uğurlar arzulamışdır.

Əsgər Ülvi Hadıyev şəxsi heyət adından minnətdarlıq edərək demişdir ki, ölkəmizdə ordu quruculuğu istiqamətində ardıcıl tədbirlər görülür. Azərbaycan əsgəri hərtərəfli qayğı ilə əhatə olunmuşdur. Hərbi hissələrdə xidmətin nümunəvi təşkili üçün lazımi şərait yaradılmış, şəxsi heyətin döyüş hazırlığı xeyli artırılmışdır. Əsgərlər torpaqlarımızın keşiyində ayıq-sayıq dayanıblar. Bu görüşlər də şəxsi heyətdə böyük ruh yüksəkliyi yaradır. Azərbaycan əsgəri bundan sonra da sərhədlərimizi etibarlı qoruyacaq, Vətənə ləyaqətlə xidmət edəcəkdir.

Ali Məclisin Sədri xidmətdə fərqlənən hərbi qulluqçulara hədiyyələr təqdim etmiş, əsgər yataqxanasına baxmış, şəxsi heyətin sosial-məişət şəraiti ilə maraqlanmışdır.

Bildirilmişdir ki, əsaslı şəkildə yenidən qurulan əsgər yataqxanası daimi istiliklə təchiz olunmuş, şəxsi heyət təmiz geyim və yataq dəstləri ilə təmin edilmişdir. Hərbi hissənin anbarında da tələbata uyğun ərzaq və yanacaq ehtiyatı yaradılmışdır. Burada təlimlərin keçirilməsi, əsgərlərin asudə vaxtının səmərəli təşkili üçün də lazımi şərait vardır.

Gətirilmiş ərzaq hərbi hissənin anbarına təhvil verilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Azərbaycan-Türkiyə birliyi sarsılmazdır

***Son iki əsrdə Osmanlı türklərinin və azərbaycanlıların üzləşdiyi faciəli tarixi hadisələr birbaşa erməni amili ilə bağlıdır. Ötən əsrin əvvəllərində Aralıq dənizindən başlayaraq bütün Cənubi Qafqaza və hətta Şimali Qafqazın böyük bir hissəsinə sahiblik iddiasına düşən ermənilərin apardığı təcavüzkarlıq siyasəti türk-müsəlman əhalisinə çox böyük faciələr bahasına başa gəlmişdir.***

Erməni millətçiləri üçün tarixə saxtakarcasına yanaşmanın yalnız bir yolu vardır: "böyük Ermənistan" məramına xidmət etmək. Erməni məntiqinə görə, həmin iddianın təsdiqi üçün fakt yoxdursa, onda haradan olursa-olsun, quraşdırmaq lazımdır. Erməni millətçiləri bu yolda istənilən mənfur hərəkətə, hətta terrora da əl atmağı məqbul hesab edirlər. Tədqiqatçı Jemçuynikov bunu nəzərə alaraq yazırdı ki, *"Qışqıra-qışqıra danışmaq erməni xəstəliyidir. Özgə millətləri də özlərinin xeyrinə qışqırmağa, yalan informasiya yaymağa cəlb edə bilirlər..."*

Son günlər Roma Papası I Fransiskin "ötən əsrdə ilk soyqırımı ermənilərə qarşı həyata keçirilib" açıqlaması və bunun davamı olaraq Avropa Parlamentinin aprelin 15-də 12 maddəlik "erməni soyqırımı" qətnaməsini qəbul etməsi Jemçuynikovun fikirlərini bir daha təsdiq edir. Tarixi saxtalaşdırmaq cəhdinin daha bir acı nəticəsi olan bu qətnamə dünyaya demokratiya dərsi keçən Avropanın, sülhün və ədalətin "simvolu"na çevrilmiş rəsmi Vatikanın iç üzünü növbəti dəfə açıb göstərdi.

Daim havadarlarının kölgəsində gizlənən ermənilərin öz əməllərini ört-basdır etmələrinin yeni bir forması olan qondarma "soyqırımı" iddiası bu gün Avropa Parlamentində səslənirsə, hətta bununla bağlı qətnamə qəbul edilirsə, o zaman dünyaya ədalət carçısı kimi hayqıran həmin Avropa nə üçün ermənilər tərəfindən Türkiyə və Azərbaycanda törədilən soyqırımını görmək istəmir? Ərzincan, Van, Ərzurum qətliamlarını, Naxçıvan, Gəncə, Bakı qırğınlarını, Xocalı soyqırımını nə üçün dilinə gətirməyə qorxur?! Ona görə ki, qondarma erməni məsələsi çoxdandır, tarix üçün yox, siyasət üçün alətə çevrilib.

1915-ci ildə qalib dövlətlər türk millətini Yer üzündən silmək, onun dövlətçiliyini məhv etmək, ərazisini bölüşdürmək üçün hərəkətə keçmişdilər. Bu yolda erməni məsələsi alət kimi istifadə olundu. Çünki bu xalq dəfələrlə ona himayə duran Osmanlı hakimiyyətinə xəyanət etmişdir. Osmanlı imperatorluğu ərazisində dəfələrlə erməni üsyanları baş vermiş, erməni toplumu türk dövlətçiliyinə, türk soyuna qarşı rusların, fransızların və ingilislərin xeyrinə ən alçaq hərəkətlərə əl qoymuşdu. Nəticədə, çoxsaylı dinc türk əhalisi qətlə yetirilmiş, insanlar amansızcasına öldürülmüşdür. Lakin qəhrəman türk xalqı öz istiqlaliyyəti uğrunda həm daxildəki ermənilərə, həm də xarici qüvvələrə qarşı mübarizə aparmış, bu yolda milyonlarla şəhid vermişdir. Ermənilər isə mənfur planlarının baş tutmadığını anladıqda yenidən "yazıq millət" libasına bürünərək guya soyqırımına məruz qaldıqlarını iddia etməyə başlamışlar. Türkiyə hökuməti dəfələrlə arxivlərin açılmasını və tarixçilərin bu məsələni araşdırıb qiymət verməsini təklif etmişdir. Nə Ermənistan hökuməti, nə də Qərb dövlətləri bu günədək Türkiyə hökumətinin təklifini qəbul etmişlər. Bu fakt bir daha göstərir ki, "erməni soyqırımı" uydurmadan başqa bir şey deyil!

Bunun əksinə, yüz ildən çoxdur ki, türk xalqları ermənilərin işğalçılıq və soyqırımı siyasətindən əziyyət çəkirlər. XIX əsrin sonlarından etibarən erməni millətçiləri müasir Türkiyə Respublikasının ərazisində və Cənubi Qafqazda kütləvi terror aktları və qırğınlar törədərək əliyalın türkləri və azərbaycanlıları vəhşicəsinə qətlə yetirmiş, saysız-hesabsız yaşayış məntəqəsini viran qoymuş, qədim mədəniyyət abidələrini yerlə-yeksan etmişlər. 1905-1907-ci, 1918-1920-ci illərdə İrəvanda, Zəngəzurda, Bakıda, Naxçıvanda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, habelə Qarabağda, Muğanda və digər yerlərdə, Birinci Dünya müharibəsi illərində Şərqi Anadoluda – Ərzurumda, Qarsda, Ərdəhanda, Adanada ermənilər tərəfindən dinc əhaliyə amansızcasına divan tutulmuşdur.

Azərbaycanda 1914-1918-ci illərdə 150 min, 1918-1920-ci illərdə 250 min, qədim Azərbaycan torpağı olan İrəvan quberniyasında 132 min azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. Ermənilərin soyqırımı siyasəti Naxçıvandan da yan keçməmiş, 1918-1920-ci illərdə burada 80-dən artıq yaşayış məntəqəsi dağıdılmış, on minlərlə insanın həyatına son qoyulmuşdur. Həmin vaxt Naxçıvan bölgəsində əhalinin 70 faizi (73 min 727 nəfər) erməni quldur dəstələri tərəfindən qəddarcasına qətlə yetirilmişdir. Amerika tarixçisi C.K.Makkartinin yazdığına görə, ümumilikdə, XX əsrin əvvəllərində baş verən bu qanlı hadisələr zamanı Türkiyə və Azərbaycan ərazisində 2,5 milyon türk əhali məhv edilmişdir.

1988-ci ildə ermənilər tərəfindən başlanan işğalçılıq müharibəsi və etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal olunmuş, 1 milyondan çox azərbaycanlı yaşadığı tarixi ərazidən qovulub didərgin salınmış, 877 şəhər, kənd və qəsəbə dağıdılmış və yandırılmışdır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri Azərbaycanın Xocalı şəhərində soyqırımı törətmişlər. Ermənistanın ölkəmizə təcavüzünün başlandığı vaxtdan erməni terrorçu təşkilatlarının həyata keçirdikləri 32 terror aktı nəticəsində 2 mindən çox azərbaycanlı həlak olmuş, on minlərlə adam yaralanmışdır.

Bütün bunlar faktdır. Özü də 100 il bundan əvvəl yox, yaxın tarixdə Azərbaycan türklərinə qarşı törədilmiş erməni vəhşiliyinin dünya dövlətləri tərəfindən sükutla qarşılanması da faktdır. Avropa Parlamentinin və Vatikanın qərəzli mövqeyi qeyd olunanların daha bir təsdiqidir. Əslində, həm Avropa Parlamentinin uydurma "erməni soyqırımı" ilə bağlı qəbul etdiyi qətnamə, həm də dünyaya tolerantlıq dərsi keçən Vatikanın ermənilərə axıtdığı "göz yaşları" xristian təəssübkeşliyindən başqa bir şey deyil. Ermənistan bu gün Avropa Birliyinin üzvü deyil. Hətta bu ölkə öz xarici siyasətində Avropa Birliyinin əleyhinə addımlar da atır. Digər bir tərəfdən Ermənistan xristian ölkəsi olsa da, əhalisinin böyük əksəriyyəti Qriqorianlığa etiqad edir ki, bunun da Vatikanla heç bir bağlılığı yoxdur. Onda həm Avropa Parlamenti, həm də Vatikanın qondarma soyqırımı iddiasında bu qədər cəfakeşlik göstərmələri hansı məqsədə xidmət edir?!

Məqsəd aydındır. Dost və qardaş ölkələr olan Azərbaycan və Türkiyənin sürətli inkişafı, regionda əsl söz sahibi olması, "Bir millət, iki dövlət" səviyyəsinə yüksələn strateji əlaqələri, hər iki ölkənin regional enerji layihələrinin icraçısı kimi bölgədə təhlükəsizliyin qarantına çevrilməsi Avropa Parlamenti və Vatikan tərəfindən birmənalı qarşılanmır. Bu gün Azərbaycan-Türkiyə dostluğunu təhdid kimi qəbul edən xarici qüvvələr yenidən erməni faktorundan alət kimi istifadə edirlər. Lakin bu dəfə başqa bir müstəvidə. Avropa Parlamentinin sözügedən qətnaməsinin 4-cü bəndində tələb olunur ki, Türkiyə Ermənistanla sərhədlərini açsın. Qətnamənin müəllifləri unudurlar ki, bu sərhədlər Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına cavab olaraq bağlanmışdır.

Türkiyə-Ermənistan sərhədlərinin yalnız Qarabağ münaqişəsinin həll olunacağı və işğal olunmuş Azərbaycan torpaqlarının geri qaytarılacağı təqdirdə açılacağını bildirən, Türkiyə-Azərbaycan dostluğunun heç zaman sarsılmayacağına diqqət çəkən Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan bəyan etmişdir ki, ***"Türkiyə-Azərbaycan əməkdaşlığı, sadəcə, dövlətlərimiz arasındakı güclü həmrəyliyə deyil, eyni zamanda xalqlarımızın paylaşdığı köklü tarix və könül birliyinə söykənir. Türkiyə və Azərbaycan xalqları eyni dildə danışır, müştərək bir tarixi paylaşır. Türkiyə və Azərbaycan qarşılarına eyni coğrafiyada sülh, sabitlik və rifahın təmin edilməsi məqsədini qoymuşlar. Bu sağlam zəmin üzərində qurulan, "Bir millət, iki dövlət" prinsipi əsasında möhkəmlənən əlaqələrimiz siyasi və iqtisadi sahələrdə əldə olunan inkişaf prosesi ilə bugünkü mükəmməl səviyyəsinə çatmışdır".***

Həm Avropa, həm də Vatikan bilməlidir ki, eyni kökdən olan xalqları heç bir siyasi təzyiq ayıra bilməz. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Xalqlarımızı birləşdirən ortaq tarix, ortaq mədəniyyətdir. Bunlar çox güclü əsaslardır. Ölkələrimizi birləşdirən insanların bir-birinə olan məhəbbətidir, qəlbindəki sevgidir. Bizi birləşdirən strateji müttəfiqliyimizdir... Türkiyə və Azərbaycan dünya miqyasında nadir müttəfiqlik münasibətlərini qura bilmişlər. Biz bütün sahələrdə dost, qardaş kimi bərabər hərəkət edirik. Bundan sonra da onilliklər ərzində Türkiyə və Azərbaycan daim bir yerdə olacaqlar... Ölkələrimiz daha da sıx birləşəcək, siyasi, iqtisadi və bütün başqa sahələrdə əməkdaşlıq daha da dərinləşəcəkdir".***

Aprelin 24-də qardaş Türkiyə Cümhuriyyəti Çanaqqala zəfərinin 100 illiyini qeyd edəcəkdir. Türkiyə-Azərbaycan birliyinin daha bir təntənəsi olan Çanaqqala zəfəri həm də hər iki xalqın tarixin çətin anlarında bir-birinin yanında olmasının, dostluq və qardaşlığının təcəssümüdür. 1915-ci ildə Çanaqqalada istiqlal bayrağına boyanan türk və azərbaycanlı qanı yeri gəlsə, Şuşada, Laçında, Xankəndidə də axıdılacaq, torpaqlarımız işğaldan azad olunacaqdır. Tarixi saxtakarlıq əsasında "erməni soyqırımı" iddiaları ilə çıxış edən Ermənistan isə gec-tez beynəlxalq ictimaiyyət qarşısında türk xalqlarına qarşı törətdiyi cinayətlərə görə cavab verəcək, daşıdığı siyasi, hüquqi və mənəvi məsuliyyəti etiraf edəcəkdir. "Qətnamə"lərlə özünü və dünyanı aldatmağa çalışan Ermənistanın bu gün düşdüyü acınacaqlı vəziyyətdən başqa çıxış yolu yoxdur.

***Naxçıvan Muxtar Respublikası***
***Ali Məclisinin mətbuat xidməti***

# Naxçıvan Musiqi Kollecinin yaradılmasının 40 illik yubileyi qeyd edilib



*Aprelin 22-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin, Mədəniyyət və Turizm Nazirliyinin, Naxçıvan Dövlət Universitetinin, Bəstəkarlar Təşkilatının və Naxçıvan Musiqi Kollecinin təşkilatçılığı ilə Təhsil Nazirliyində Naxçıvan Musiqi Kollecinin yaradılmasının 40 illik yubileyi münasibətilə konfrans keçirilib.*

Konfransı Təhsil naziri Piri Nağıyev açaraq kollecin yaranma tarixindən və inkişaf yolundan danışıb. Bildirilib ki, Naxçıvan Musiqi Kolleci ümummilli lider Heydər Əliyevin tapşırığı və təşəbbüsü ilə 1974-cü ildə yaradılıb. 1975-1976-cı tədris ilində 4 ixtisas üzrə fəaliyyətə başlayan kollec 1992-ci ilə qədər Naxçıvan Orta İxtisas Musiqi Məktəbi, 1992-ci ildən Naxçıvan Musiqi Texnikumu adlandırılıb, 2005-ci ildən isə Naxçıvan Musiqi Kolleci adı ilə fəaliyyət göstərir. Hazırda kollecdə 11 ixtisas üzrə kadr hazırlığı aparılır. Ötən 40 il ərzində Naxçıvan Musiqi Kollecinin 2500-dən çox məzunu olub. Məktəbin məzunları ölkəmizin mədəniyyət müəssisələrində, uşaq musiqi məktəblərində çalışaraq mədəniyyətin və incəsənətin inkişafında xidmətlər göstərirlər.

Naxçıvan Musiqi Kollecinin 2005-ci ildə 30 illik yubileyinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə geniş qeyd olunduğunu xatırladan nazir vurğulayıb ki, bu ilin aprel ayında kollecin yaradılmasından 40 il ötür. Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 29 mart 2015-ci il tarixdə "Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, yubiley tədbirlərinin keçirilməsi ilə əlaqədar tədbirlər planı təsdiq edilib.

Konfransda Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm naziri Sarvan İbrahimov "Musiqi mədəniyyətimizə töhfələr verən təhsil ocağı" mövzusunda çıxış edib. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında ixtisaslı musiqiçi kadrların yetişdirilməsi, istedadlı gənclərin musiqi təhsilinə cəlb olunması, milli musiqi alətlərimizin və xalq mahnılarımızın yaşadılması, eləcə də klassik və müasir dünya bəstəkarlarının əsərlərinin öyrənilməsi məqsədilə yaradılan Naxçıvan Musiqi Kolleci artıq 40 ildir, Naxçıvanda gənc musiqiçi kadrların yetişdirilməsinə öz töhfələrini verməkdədir.

"Kollec təkcə təhsil müəssisəsi kimi fəaliyyətlə kifayətlənməyib, həmçinin müxtəlif illərdə keçirilən respublika və beynəlxalq səviyyəli müsabiqələrdə, muxtar respublikada keçirilən mötəbər tədbirlərdə, el şənliklərində peşəkar konsert proqramları ilə çıxış edib, musiqi kollektivlərinin yaradılmasında uğurlara nail olub", – deyən Mədəniyyət və Turizm naziri əlavə edib ki, ali musiqi məktəbləri üçün baza rolunu oynayan Naxçıvan Musiqi Kollecinin orta ixtisaslı musiqiçi kadrların hazırlanmasında rolu böyükdür.

Sonra Naxçıvan Dövlət Universitetinin Musiqişünaslıq kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru İnara Məhərrəmovanın "Naxçıvan Muxtar Respublikasının musiqi mədəniyyətinin inkişafında Naxçıvan Musiqi Kollecinin rolu", Bəstəkarlar Təşkilatının üzvü, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Yaşar Xəlilovun "Naxçıvan Musiqi Kollecinin musiqi kollektivləri", kollecin direktoru Həsən Seyidovun "Naxçıvan Musiqi Kolleci 1975-2015-ci illərdə" mövzularında çıxışları olub.

Konfransa Təhsil naziri Piri Nağıyev yekun vurub.

**Xəbərlər şöbəsi**

***Türkiyə Cümhuriyyətinin Abant İzzət Baysal Universitetinin nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər çərçivəsində Naxçıvan Dövlət Universitetində (NDU) olub.***

# Naxçıvan Dövlət Universitetinin Türkiyə universitetləri ilə əlaqələri genişlənir

NDU-nun rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Azərbaycan və Türkiyə arasındakı dostluq və qardaşlıq əlaqələrindən danışıb. Bu əlaqələrin inkişafında elm və təhsil müəssisələri arasında tərəfdaşlığın xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayan rektor qeyd edib ki, bu ali məktəb Türkiyə universitetləri ilə əməkdaşlığa xüsusi önəm verir. Universitet qardaş ölkənin 40-a yaxın ali təhsil ocağı ilə elm, təhsil, mədəniyyət və idman sahələrində əməkdaşlıq edir. Həmçinin universitet Türkiyənin 40 ali məktəbi ilə birgə digər ölkələrin də ali təhsil müəssisələri arasında tələbə və akademik heyətin mübadiləsini həyata keçirmək məqsədi daşıyan Mövlana Mübadilə Proqramının iştirakçısıdır. Tibb fakültəsinin bir neçə tələbəsi artıq bu mübadilə proqramına əsasən, ali təhsillərini Türkiyənin müxtəlif ali təhsil ocaqlarında davam etdirir.

Qonaqlardan Əminə Əratay təmsil etdiyi universitet haqqında məlumat verərək qeyd edib ki, mərkəz kampusu Boludan 13 kilometr uzaqlıqda yerləşən Abant İzzət Baysal Universitetində 1000-ə yaxın təhsil işçisi çalışır, 10 fakültə, institut, 5 yüksək məslək məktəbi fəaliyyət göstərir, 20 minə yaxın tələbə təhsil alır. Digər çıxış edənlər Naxçıvan və Naxçıvan Dövlət Universiteti haqqında xoş təəssüratlarını bölüşüblər.

Sonra universitetlə tanışlıq olub. Tədris işləri üzrə prorektor, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid universitetin yaranma tarixi, strukturu haqqında qonaqlara məlumat verərək qeyd edib ki, 10 fakültə və 47 kafedranın, magistratura və xarici tələbələrlə iş üzrə dekanlıqların fəaliyyət göstərdiyi universitetdə hazırda 237 nəfəri xarici ölkə vətəndaşı olmaqla, 5349 nəfər tələbə ali təhsil alır. Qonaqlar müxtəlif fakültələrdə tələbələrlə görüşüb tədris prosesi ilə tanış olublar.

**Mehriban SULTAN**

# Kitablar tarixin silinməz yaddaşıdır

*YUNESKO 1995-ci il noyabrın 15-də Parisdə keçirilən 28-ci sessiyasında 23 apreli Ümumdünya Kitab və Müəllif Hüquqları Günü elan etmişdir. Bu gün 2001-ci ildən etibarən hər il ölkəmizdə də qeyd edilir.*

Yaradıcılıq anlayışı ilə sıx bağlı olan müəlliflik hüququ mədəniyyətin və biliklərin uzaq keçmişindən bəhrələnən məhsuludur. Azərbaycanda kitab nəşrinin, eləcə də müəlliflik anlayışının tarixi çox qədimdir. Xalqımız tərəfindən yaradılan qədim əmək mahnıları, mərasim nəğmələri, bayatılar, əfsanələr, rəvayətlər, qəhrəmanlıq dastanları əvvəllər şifahi formada yayılmış, sonralar isə daş, ağac və gil üzərinə köçürülərək bu günümüzə qədər gəlib çatmışdır. Orta əsrlərdən başlayaraq görkəmli Azərbaycan şairləri öz şeirlərinin sonunda poetik adlarını işlətməklə müəlliflik hüququnun ilkin səmərəli qorunma formasını yaratmışlar.

Azərbaycanda kitab mədəniyyəti X-XII əsrlərdən başlayaraq yeni inkişaf mərhələsinə qədəm qoymuş, ədəbiyyat, coğrafiya, təbabət, astronomiya, tarix, fəlsəfə, məntiqə aid gözəl əsərlər yaranmışdır. Bu dövrdə Azərbaycan kitab tarixini zənginləşdirən böyük alimlər, şairlər yaşayıb-yaratmışlar. Müxtəlif tarixi dövrlərin böyük ustadları olan Xətib Təbrizinin, Məhsəti Gəncəvinin, Nizami Gəncəvinin, Nəcməddin Naxçıvaninin, Hinduşah Naxçıvaninin, Nəsirəddin Tusinin, Qətran Təbrizinin, Bəhmənyarın və başqalarının müəllif hüquqlarının qorunmasını ortaya qoyan əlyazmaları bu günə qədər gəlib çatmışdır. Bu əlyazmalar ölkəmizdən başqa, dünyanın bir sıra ölkələrində – ABŞ, Rusiya, Fransa, Almaniya, Vatikan, Çexiya, Çin, Türkiyə, İran, Özbəkistan və başqa ölkələrdə qorunub saxlanılmaqdadır. Bütün bunlar Azərbaycanda kitab və müəllif hüququnun qədim tarixə malik olmasından xəbər verir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkəmizdə kitab mədəniyyətinə, nəşriyyat işinə, kitabların yaradıcıları olan müəlliflərə hər zaman xüsusi diqqət və qayğı göstərmişdir. Hələ ötən əsrin 70-ci illərindən başlayaraq ümummilli liderimizin rəhbərliyi ilə Azərbaycanda mətbəə və nəşriyyat sahələri yenidən qurulmuş, kitab nəşri geniş vüsət almış, yaradıcı insanlar hərtərəfli qayğı ilə əhatə olunmuşlar. Müstəqillik illərində dahi şəxsiyyətin rəhbərliyi ilə kitab nəşri və müəlliflik hüququ sahəsində daha geniş və ardıcıl tədbirlər həyata keçirilmiş, 1996-cı ildə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", 1998-ci ildə "Kitabxana işi haqqında", 2000-ci ildə "Nəşriyyat işi haqqında", 2003-cü ildə "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edilmiş, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. Bu sahəyə dövlət səviyyəsində göstərilən diqqətin nəticəsidir ki, ölkəmiz tezliklə "Müəllif hüquqları haqqında" Ümumdünya Konvensiyasına qoşularaq geniş beynəlxalq əməkdaşlığa da başlamışdır. Ulu öndər kitab nəşrinə yüksək qiymət verərək demişdir: ***"Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi-ictimai həyatında çox görkəmli yer tutur. Ona görə də hər birimiz kitablara borcluyuq".***

Bu gün Azərbaycanda kitab nəşri və kitabxanaların fəaliyyətinin gücləndirilməsi, o cümlədən müəllif hüquqlarının qorunması sahəsində ardıcıl işlər görülür. Ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı", "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında", "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamlar görülən işlərin miqyasını daha da genişləndirmişdir.

Bu sahədə Heydər Əliyev Fondu tərəfindən də mühüm tədbirlər görülür. Son illər fond tərəfindən Azərbaycanın tarixi, mədəniyyəti, musiqisi, xalçaları, muğamları, xalq yaradıcılığı, bir sözlə, mədəni irsimizlə bağlı nəşr olunan kitablar, elektron daşıyıcılar zəngin elmi və mədəni potensialımızın dünyada tanıdılması xalqımızın müəlliflik hüququnun beynəlxalq aləmdə qorunması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərdir. Aparılan işlərin bəhrəsi olaraq xalqımızın zəngin mədəniyyətinin və tarixinin ən gözəl inciləri YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Son illər Azərbaycan yazıçılarının əsərlərinin xarici ölkələrdə nəşr olunması, beynəlxalq kitab yarmarkalarında, sərgilərdə nümayiş olunması da bu sahədə əldə olunan müsbət nəticələrdən xəbər verir.

Naxçıvan Muxtar Respublikasında da kitab nəşri və müəllif hüquqlarının qorunmasına ciddi diqqət yetirilir, bu sahədə görülən işlərin əhatə dairəsi getdikcə genişlənir. Son illər muxtar respublikada fəaliyyət göstərən kitabxanaların yenidən qurulması, müasir binalara köçürülməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, elektron kitabxanaların yaradılması, nəşriyyatların müasir çap avadanlıqları və yeni bina ilə təmin edilərək istifadəyə verilməsi kitab nəşrinin sürətləndirilməsinə, müəlliflərin azad və maneəsiz fəaliyyətinə hərtərəfli imkanlar açmışdır. Bu məqsədlə həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq, Naxçıvan şəhərində Kitab Evi fəaliyyətə başlamış, Naxçıvan Muxtar Respublika Kitabxanasının binası əsaslı şəkildə yenidən qurulmuş, elektron kitabxana sistemi yaradılmışdır.

Muxtar respublikada təhsil və elm müəssisələrində də kitabxanaların yenidən qurulması davamlı olaraq həyata keçirilir. 2013-cü ildə Naxçıvan Dövlət Universitetində və Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində elektron kitabxanaların istifadəyə verilməsi bunu bir daha təsdiq edir. Bundan başqa, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audio və elektron kitabxana sistemi də yaradılmışdır.



Bu gün muxtar respublikada kitabxanaların maddi-texniki bazasının gücləndirilməsi ilə yanaşı, kitab fondlarının zənginləşdirilməsi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 yanvar tarixli Sərəncamına əsasən, muxtar respublikanın kitabxanalarına 500 minə yaxın elmi və bədii ədəbiyyat paylanmışdır.

Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün istər Naxçıvan şəhərində, istərsə də ucqar dağ kəndlərində kitabxana işi müasir tələblər səviyyəsində qurulmuşdur. Bu da insanların kitaba olan marağını artırmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğı və himayəsi sayəsində nəşr olunmuş "Naxçıvan Ensiklopediyası", "Naxçıvan Abidələri Ensiklopediyası", "Naxçıvan xanlığı", "Naxçıvan tarixi atlası", "Naxçıvan folkloru", "Naxçıvan teatrının salnaməsi", "Naxçıvan milli geyimləri", "Gəncliyimiz – gələcəyimiz", "Naxçıvanda arxeoloji tədqiqatlar", "Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan", "Naxçıvan tikmələri", "Naxçıvan mətbəxi", "Naxçıvan tarixi" çoxcildliyi tariximizi və milli dəyərlərimizi öyrənmək üçün dəyərli elmi mənbələrdir. Bu kimi tədbirlərin və işlərin ardıcıl həyata keçirilməsi dövlətin bu sahəyə xüsusi önəm verməsinin göstəricisidir.

Muxtar respublikada müasir nəşriyyat və mətbəələrin fəaliyyət göstərməsi bu sahənin inkişafında mühüm rol oynayır. Naxçıvanda yaşayan yaradıcı şəxslər bu gün kitab nəşri sarıdan heç bir çətinlik çəkmirlər. İl ərzində gənc şair və yazıçıların onlarla kitabı işıq üzü görür. Bu gün Naxçıvanın qələm sahiblərinin yaradıcılıqları ölkə və dünya miqyasında tanınır və sevilir. Bütün bunlar bir daha muxtar respublikada müəllif hüquqlarına və kitab işinə ayrılan diqqətin, müəlliflərə göstərilən qayğının bariz nümunəsidir.

Bəşəriyyətin elmi və mədəni intibahı insanların yaradıcı təfəkkürünün məhsuludur. Bu mənada Ümumdünya Kitab və Müəllif Hüquqları Günü hər kəsin diqqətini kitabların və müəllif hüquqlarının qorunmasına cəlb etməlidir. Xalqımıza Əcəmi Naxçıvani, Bəhruz Kəngərli, Mirzə Cəlil, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Yusif Məmmədəliyev, Əziz Şərif, Məmməd Araz, İslam Səfərli və digər görkəmli yaradıcı şəxsiyyətlər bəxş edən Naxçıvan torpağında əqli mülkiyyət yaradıcılarının hüquqlarının qorunması sahəsindəki zəngin ənənələr bu gün də davam və inkişaf etdirilir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 329